**Layihənin istiqaməti: Azərbaycanın dövlətçilik tarixinin, milli adət-ənənələrinin, elm və mədəniyyətinin təbliği**

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu

KİVDF

Ədalət.- 2017.- 6-7 mart.- S. 3.


# Şərə meydan açan roman

## (Xalq şairi Sabir Rustəmxanlının "Şair və Şər" romanı haqqında)

**(Əvvəli ötən sayımızda)**

Romanın çəkili-tutumlu epizodlarındandır Hadi-Əli bəy Hüseynzadə xətti, Hadi - Əhməd Ağaoğlu xətti, Hadi - Fazil bəy xətti və s. Bu epizodlarda böyüyür, püxtələşir, türk dünyasına daha yaxından bağlanır Hadi əfəndi. Türkün bu əzəmətli fikir və əməl adamları formalaşdırır Hadinin dünyabaxışını genişləndirir Hadinin məlumat və bilik dairəsini, dil, ədəbiyyat, sənət və poeziya baxışlarını. Çoxdan, lap çoxdan eşitmişdi Hadi Əli bəy Hüseynzadənin adını. Oxumuşlu şeirlərini "Həyat" qəzetindən, "Eüyuzat" jurnalından. Böyüklüyündən, ucalığından çox eşitmişdi Mustafa Lütfidən. Vurulmuşdu uzaqdan-uzağa Ə.Hüseynzadəyə M.Hadi və bir gün o, gözləmədən məktub alır "Şərqin əfsanəvi şəxsiyyətindən, türk peyğəmbərindən" (səh. 145), "türk qanlı, islam imanlı, firənd fikirli" Ə. Hüseynzadədən: "Eüyuzat" adlı bir məcmuə nəşr edirik. Zati alinizi o dərginin mühərrirləri arasında görməkdən qürur duyuruq" (səh. 1462). Sevincindən yerə-göyə sığmır Hadi. Heç yatıb yuxusuna da girməzdi ki, böyük ustad ona məktub yazacaq. Sevincini bölüşmək üçün Mustafa Lütfinin yanına qaçır. Hadi sevinən qədər Lütfi də sevinir bu xəbərdən: "Nə xoş xəbər! Gör kim yazıb bu məktubu! Əlibəy Hüseynzadə! Uçmağa qanadım yoxdur, oğul! Heç kim ilyarımda bu qədər şöhrət qazana bilməz. Üzünü görmədən səni o boyda məcmuəyə dəvət edir" (səh. 145-146).

Xoş təəssürat oyadır Hadidə Ə. Hüseynzadə ilə ilk görüş, ilk tanışlıq. Yatır Hadinin ürəyinə Ə.Hüseynzadə elə ilk andaca. Ovsunlayır Hadini Əli bəyin aydın, dərin baxışları, uzunsov və mütənasib sifəti, gur saçı və Avropasayağı saqqalı ilə yerli adamlardan daha çox Qərb filosoflarına bənzəyişi, Şərqi də, Qərbi də əhatə edən ağlasığmaz dərəcədə geniş məlumatı, ensiklopedik bilik dairəsi, yerdən də, göydən də xəbərdarlığı və s. Və Hadiyə elə gəlir ki, ustadın gözəgörünməz qanadları var, adamlardan bir mərtəbə yuxarıda uçur, ayaqları yerə dəyməmdiyindən ona dünyanın tozu qonmur" (səh. 152).

Hadini vətənə, xalqa-millətə xidmətqulluğa çağırırdı Ə. Hüseynzadənin, Ə. Ağaoğlunun və habelə türkün digər parlaq simalarının hər addımı, hər söz-ifadəsi. Qürurla doldururdu Hadinin ürəyini türk yolçularının, Turan sevdalılarının dərin vətən sevgisi, tükənməz vətən məhəbbəti. Bu məhəbbət böyüyürdü Hadinin ürəyində Azərbaycan boyda olurdu, Türkiyə ucalığında olurdu və nəhayət, Turan genişliyində, Turan əlçatmazlığında olurdu: "Divarda Avroasiyanın xəritəsi var. Rusiya imperiyasının sərhədləri qalın cizgilərlə göstərilsə də, xəritədə əllə Yakutustandan Balkanlara - türklərin yaşadığı əraziləri ayıran bir xətt də çəkilmiş və üstündə iri hərflərlə "Turan" yazılmışdır" (səh. 154).

Fikir - mətinlik istinadgahları idi M.Hadiyə Əli bəy Hüseynzadə və Əhməd Ağaoğlu kimi Vətən Məcnunları. Onlar söz-söz, kəlmə-kəlmə istiqlalın və istiqbalın təməlini qoyurdular Hadinin ruhunda. Cəm edirdilər Hadinin qəlbində ədalət və həqiqəti, ağıl və hikməti, azadlıq və əmniyyəti, doğruluq və düzlüyü. Ümidləndirirdilər Hadini gözəl və parlaq gələcək uğrunda döyüş-savaşlara, istiqlal və istiqbal yolunda şanlı-şərəfətli çarpışma-vuruşmalara: "Şizin kimi milli şairə ehtiyacımız var. Böyük gücdür, bəzən bir gözəl şeir bir universitet qədər iş görür" (səh. 174)

Azadlıq təşnəlidir. İstiqlal yanğılıdır. Müstəqillik həsrətlidir Hadi əfəndi Sabir Rüstəmxanlının təqdimatında. Düşünür ki, azadlıq və istiqlaldır kainatın, yerin-göyün anlamı. Milləti (insanı) ucaldan, istedad-qabiliyyətini parladan, onu digər yaranmışlardan fərqləndirən - seçdirən ilkin keyfiyyətdir azadlıq və istiqlal. Azadlıq - istiqlal ədalət, bərabərlikdir. Fikir - düşüncə müxtəlifliyi - sərbəstliyidir. Azad fikrin, haqq sözün qanadlandığı tanrı ucaldığıdır azadlıq və istiqlal. Hamı, hər kəs azadlığı can atır, Allahın bu əvəzedilməz ilkin nemətinə qovuşmaq istəyir: " hüriyyət, istiqlaliyyət bəşəriyyətin havası, suyudur. Bir toxum, bir tumurcuq, yumurta içindəki bir maya, ana bətnindəki bir uşaq göstər ki, azadlığa can atmasın! Bizim kimi tənbəl millətlərə baxma, boyunduruq götürməyən millətlər də var" (səh. 75).

Azadlıq axtarırdı Hadi Şamaxıda, Kürdəmirdə. Azadlıq soraqlayırdı Hadi Həştərxanda, Bakıda. Hətta Balkanlara, Karpatlara da azadlıq eşqilə getmişdi Hadi əfəndi. Lakin tapmır heç yerdə, heç yanda azadlığı. Elə bil göylərə çəkmişdilər azadlığı Şər övladları - özgə torpaqlardan vazkeçməz çarlar, hikkəli - hədyanlı şahlar, ulduz köşkündən endirilən sultanlar

Şər üzmüşdü azadlığın ayaqlarını məmləkətdən (məmləkətlərdən). Fəqət ümidsizləşməmişdi xalq bundan. İnamı sarsılmamışdı xalqın. Milli miqavimət zəif idi, lakin tam öləzimərmişdi xalqın ruhu. Hadi (xalq) inanırdı viranənin abadlaşacağına. Zülmdən ədalətə keçiləcəyinə. Əsarətdən azadlığa adlayacağına:



*Biz vətən viranəsin ədl ilə abad istərik.*
*Seyli - ədl ilə binayi-zülmü bərbad istərik.*
*Millətin qəlbi - həzinin xürrəmi şad istərik,*
*Sevmərik qeydi-əsarət, xalqı azad istərik.*
*Xalqı azad istərik, qanuna minqad istərik.*

Keçirir Hadini odlar - alovlar içindən Sabir Rüstəmxanlı. Gəzdirir Hadini gah Balkan, gah da Karpat savaşlarında. Könüllü gedir hər iki müharibəyə Hadi - birincisinə "Tənin"in müxbiri, ikincisinə müsəlman mollası kimi. Hadi qət edir müharibə - döyüş yollarını gah qatarla, gah araba ilə, gah da piyada. Nə müharibələrin sonu görünür, nə yollar qurtarır, nə də Hadinin cəhbə xatirə - gündəlikləri. Hadi üçün nə Karpat dağlarının Balkanlardan ciddi bir fərqi var, nə də orada atılan mərmilərlə buradakı mərmilərin. Müharibə elə hər yerdə müharibədir: insan ölümüdür, yurd-yuvaların dağıdılmasıdır, ocaqların sönüdürülməsidir, qapı-bacaların bağladılmasıdır, kitabxana və xəstəxanaların uçurulmasıdır, maddi-mədəniyyət abidələrinin yerlə yeksanıdır, tökülən göz yaşlarıdır, kəsilən insan başlarıdır. Ərsizlikdir. Oğulsuzluqdur. Vəhşilikdir. Vəhşətdir. Dəhşətdir müharibə (və sonralar Hadi müharibə dəhşətlərini "Əlvahi-intibah" poemasında lirik-romantik üslubda tərənnüm edəcəkdir).

Yaxşı bilirdi ki, Hadi Karpatlarda almanla rus vuruşur - torpaq və Avropa ağalığı üstündə. Bunu anlamaq olar. Ancaq bu savaşda Hadinin nə işi var? Bunu aydınlaşdıra bilmirdi Hadi özünə. Orda-Balkanlarda savaşa qatılmaq Osmanlı ilə yanaşı vətənin müdafiəsidir, həm də ora könüllü getmişdir. Bəs burada - Karpatlarda kimi müdafiə edir? Carı müdafiə edir: qalib gəlsin, daha da güclənsin. Sonra onun olan - qalanını da əlindən alsın, üzünə tüpürsün, olmayan mədəniyyətilə ona mədəniyyət dərsi versin, ayaq altında xıncımlasın, axırına çıxsın. Almanlar rusları da dartıblar bu oyuna. İndi almanla rusun xətrinə doğma qardaşımla savaşmalıyam. Namiq Kamal, ustad Əkrəm məzarlarından qalxıb nə deyəcəklər?" (səh. 444).

Müharibə, xüsusən özünün Karpatlarda döyüşməsi haqqında fikir - düşüncələr yorurdu Hadini. Rahatlıq vermirdi Hadiyə: "Sənin qəhrəmanlığının nəticəsində səni əzən, sənə nifrət eləyən bir hökumətin güclənəcəyini və səninlə daha sərt davranacağını bildiyin halda hansı ürəklə döyüşə, güllə ata, adam öldürə bilərsən? Bəlkə, öldürdüyün öz qardaşındır? Mən öz qardaşımı mənim olmayan bir dövlətə niyə qurban verməliyəm?" (səh. 445).

Çar Rusiyasının Azərbaycan əsgərlərinə həqarətli, etibarsız münasibətinə dözmür və bu münasibətə özünün tənqidi, fərdi baxışlarını ortaya qoyurdu Hadi: bu yandan hökumət Azərbaycan gəncinə etimad göstərmir, ona silah-sursat etibar etmir; digər tərəfdən onu müharibəyə səfərbər edir, onlardan təşkil olunan suvari alayını "dikaya diviziya", digər tərəfdən onları "başıpozuq" adlandırır: "Əlbəttə, başıpozuqdur! Sən ona harada təlim verdin ki, hərbin və ordunun sirlərini öyrənsin? Amma şükür, kimsə türkün cəsarətinə, igidliyinə şübhə edə bilməz. Hər nə qədər hökumət etimad göstərməsə də, yenə savaşa qatılan hərbçilərimiz vardı və onlar hərəsi öz sahəsində lider idi, ad çıxarmışdı" (səh. 447).

Sabir Rüstəmxanlının təsvirlərindən açıq-aydın görünür ki, öyünür-onurlanır, fəxr-fəxarətlənir Hadi Azərbaycanın dünya şöhrətli hərb xadimləriylə: Qafqaz ordusunun başında duran general Mehmandarovla, rus topçuluq sənətinin allahı general Əliağa Şıxlinski ilə. "Süvarilər arasında, hətta təyyarəçilər arasında adlı-sanlı hərbiçilərimiz var. Qoy çar hökuməti görsün ki, Qafqaz türklərinə etibar etməməklə nə boyda səhv edir" (səh. 447).

**(ardı gələn sayımızda)**


***Musa Xanbabazadə***
***filoloq-ədəbiyyatşünas,***
***AJB-nin üzvü***